

*Nəcməddin MÜRVƏTOV*

## Vicdanı yatdı ki

Bəhs edirdi saflığından,
Haqqı nahaqqa satdı ki.
Ötürmür ki fürsət bir an,
Haram, halalı qatdı ki.

Oldu ki qul ac nəfsinə,
Qohum, qonşunun bəhsinə.
"Kəsir başları tərsinə",
Tamam günaha batdı ki.

Çoxaldıqca onda imkan,
Gözləmir ki ədəb-ərkan.
Unuduldu ad, şərəf-şan,
Abır-həyanı atdı ki.

Dağlamaqla düz-dürüstü,
Tərifləyir nadürüstü,
Tapdalayır acız, süstü,
Bundan ifrata çatdı ki.

Yox ruhunda ədaləti,
Say-hesabsız qəbahəti.
Barəsində fikrim qəti,
Deyən vicdanı yatdı ki.

## Darıxma

Yazılmayıb bəxtimizə yox vüsal,
Xəyallarda məni anıb darıxma.
Qoy üzməsin ürəyini bax bu hal,
Heç özünü naçar sanıb, darıxma.

Qarışmağa ruh, hissinə, duyğuna,
Çağır gəlim qonaq hər gün uyğuna,
Cavab verim min bir sual, sorğuna,
Gerçəkləri belə danıb, darıxma.

Qat başını qat, birtəhər iş-gücə,
Köklən xırda uğurundan sevincə,
Gileyinlə demə edim bəs necə,
Qismətin bu, qəbullanıb, darıxma.

Ümidsizlik qoy üzməsin heç səni,
Bitir getsin dilindəki naləni,
Ah-ufunun olar xeyri de yəni?
Hünərini halsız danıb, darıxma.

Gül çöhrəni soldurmasın həsrətin,
Köksü qəmlə doldurmasın həsrətin,
Hoqqa, oyun bol qurmasın həsrətin,
Bundan hər an səssiz yanıb, darıxma.

## Yetişdi

Arzusuydu gen-bol ola imkanı,
Ona-buna "ata-ata" yetişdi.
Dilə düşə ucuz, puç şərəf-şanı,
Ətrafını "sata-sata" yetişdi.

Xəyallarda nə umdusa o, buna,
Nail ola, girdi hər an min dona.
Baş qoşmaqla şər, hoqqayla oyuna,
Hey marığa yata-yata yetişdi.

Marağıydı yekələnə, böyüyə,
Yetə, çata "ucalığa", lap göyə.
Yalmanmaqla harda kimsə böyüyə,
Dil dilinə qata-qata yetişdi.

Hər bir kəsdən umacağı çoxdu, çox,
Nəfsi acdı gözə girən qarnı tox.
Lap görsə də ələ gələ ümid yox,
Yavaş-yavaş çata-çata yetişdi.

Qalaqlaya mal-dövləti, pul, malı,
Gözləmədi heç haramı halalı.
Gendən çəkdi diqqət onun bu halı,
Günahlara bata-bata yetişdi.

## İndi yadam

Haqq deyərdi, danışardı həmişə,
İndi onun nahaqqının sanı yox.
Bələliyi dönüb onda vərdişə,
Yaşamının yalansızlıq anı yox.

Uymağıyla fitnəsinə şeytanın,
Görüb yəqin o haramın dadını.
Bax bundandır ötürmür də imkanın,
Qazanc üçün düşünmədən adını.

Fikri-zikri ona-buna yarına,
Bəlkə hardan nəsə tuta, götürə.
Ucuz qiymət qoyub abır, arına,
Eyhamlara heç baxmayıb ötürə.

Təəccübəm, həminkimi bu adam
Əvəzinə and içdiyim bir zaman?
İndi onla ruhən uzaq çox yadam,
İnsan necə dəyişərmiş, ay aman.

Təəssüfüm hududsuzdur bu hala,
İnanmazdım ucuzlaşar bu qədər.
Hazıram ki, didəm onu az qala,
Düzəlməz, yox, olar bu da boş, hədər.

## Yaradandan əhv dilə

Deyilsən mələyi uca Allahın,
Azdırsa ruhunu nəfsin, tamahın,
Keçməz and-amanın onda vay, ahın.
Qansan, etirafı tez gətir dilə,
Dilə, Yaradandan dilə, əhv dilə.

Ayrılıb bir ömür sənə vaxt, zaman,
Dünya gərdişində bu adicə an.
Et ki, ibadəti olma da peşman.
Qalıbsa bu vacib gələn ay, ilə
Dilə, Yaradandan dilə, əhv dilə.

Çıxarsa əlindən əgər bir xəta,
Bundan xəcalətdən alnı tər tuta.
İtə yaşam eşqin, bitə həyata,
Axa gözün yaşı, dönə çay, selə.
Dilə, Yaradandan dilə, əhv dilə.

Olar yönəldənlər, salan bəd yola,
Vurasan belədə haqdan sağ-sola,
Uyasan işrətə, haramdan bola.
Bax, gör naqislikdə qalxmısan "zil"ə,
Dilə, Yaradandan dilə, əhv dilə.

Bəndəsən, şəksiz ki, günahların var,
Bildiyin, qalanlar dərkindən kənar.
Gizlinlər, bəllilər hamıya aşkar.
Böyüklər, kiçiklər, zərrə, bir gilə
Dilə, Yaradandan dilə, əhv dilə.

## Hələ qalıb

Yalan, hədyan ilə tutub dünyanı,
İnanan yox, doğru olan adam var.
Arayanlar əyriliyə imkanı,
Doğrulara oğru deyib çəkir car.

Sözlər sanki dəyişdirib mənanı,
Sağ sol olub, solsa sağın yerində.
Ağ yerinə sırıyırlar qaranı,
Tərs avanddır şərti xeyir, şərində.

Hərə bir cür oyun qurur qazana,
Gözü qıpıq qalanlar da deyil az.
İrad tutan yox yolunu azana,
Təriflənir sərsəm, sarsaq, yaramaz.

Quranlar çox kor şeytanla ittifaq,
Sala bilə kimi necə cəncələ.
Haqsızlardır haqlılara edən lağ,
Gülüb deyir şərim yoxdur, bax hələ.

Hərə bir cür haqlı sayır özünü,
Yalançı da, fırıldaq da, oğru da.
Lap hərdən bir deyənlər var düzünü,
Deyən, qalıb az olsa da doğru da.

## Danışma, yox

Dilin pis öyrəşib hərzə, hədyana,
Yaxşısı, dayan, dur lal, danışma, yox.
Dinsən sözün-sovun ədəb-ərkana
Gəlmir uyğun, səssiz qal, danışma yox.

Harda, nə mövzuda alınsa bir bəhs,
Bilmədən dediyin nə düz, nədir tərs.
Çənən hey üyüdür, boşdan salır səs.
Bundan görünürsən kal, danışma yox

Alsa da səsindən bəlağət tonu,
Təkziblə əvvəli fikrini, sonu.
Geyir bər-bəzəkli puç riya donu,
Olur vecsiz, ucuz "mal" danışma yox.

Axı nə deyirsən öyrənə kim, nə,
Uya, heyran qala bir düşüncənə?
"Ağzından tökülən" əskiklik sənə
Gətirir, bəd, məğmun hal, danışma yox.

Bitmir, tükənmir ki hap-gop, lağ-lağın,
Usanır bax bundan ətraf, sol-sağın.
Olacaq görsən dinləmək çağın?
Özündən sor, xəbər al, danışma yox.

## Bağışlamaz

Etmə hər kəsə etibar,
Qurma açıq, gizlin rəftar,
Vicdanlılar, çox pak, saflar
Tək, var şəksiz naxələf də,
Bağışlamaz xırda səhvdə.

Sanma doğru, kim nə desə,
Nadanlarla girmə bəhsə,
Söylə haqqı qısa, kəsə.
Bil şeytan var hər tərəfdə,
Bağışlamaz xırda səhvdə.

"Düz"ə tələ quranlar çox,
Hər işini buranlar çox,
Hay-küyüylə yoranlar çox.
Şər söyləyə duran səfdə,
Bağışlamaz xırda səhvdə.

Addımında diqqətli ol,
Düz get, vurma nə sağ, nə sol,
Cəhd, səyiylə azdıran bol.
Qurmağıyla tor, kələfdə,
Bağışlamaz xırda səhvdə.

Arxayın ol özünə tək,
Um ağlın, dərkindən kömək,
Yox, deyil, yox, hamı mələk.
İnsafsız var edə məhv də,
Bağışlamaz xırda səhvdə.

## Tanımağa hər kəsi

Rəftar qurmaq heç də deyil çox asan,
Bambaşqadır söz, əməldə hər insan,
Düz sandığın görürsən ki, "vurur yan".
Xislətindən doğruluğu, tərs, nəhsi,
Haqqı tanı, tanımağa hər kəsi.

Hiyləgər var addımında aldadan,
İnandıra hey eyləyən and-aman,
Dilində cəm "ay əzizim", "qurban can".
Çaşdırmaya hər söz -sovu, kəlməsii,
Haqqı tanı, tanımağa hər kəsi.

Qəddarlar var yazıq, fağır görkəmi,
Zarımaqla ötən, keçən, hər dəmi,
İmkan düşsə ağrı-acı, ələmi
Yaradır ki, arta kefi, nəşəsi,
Haqqı tanı, tanımağa hər kəsi.

Dilində puç, hədər, hərzə, hədyanı,
Başda görmək hər məclisdə nadanı,
Adiləşib, heçdən ucuz ad-sanı.
Məşhurluğa tükənməyən həvəsi,
Haqqı tanı, tanımağa hər kəsi.

Haqqı tanı, bu ən dürüst, düz meyar,
Həqiqətə göz kor olmaz, qulaq kar,
Onda dərkin ədalətə yol açar.
Qoru müdam ruhundakı bu "bəs"i,
Haqqı tanı, tanımağa hər kəsi.

## Zövq duymur

Şübhəli kimsə yaxşılığımdan,
Düşünür xeyrimə edirəm bunu.
Sorğuya, suala ötürmür ki an,
Bilə məqsədimin nə olduğunu.

"Etməz, yox havayı"-sərsəm düşüncə,
Gətirir ağlına min zənn, gümanı.
Dərd çəkir axı, hə, öyrənim necə,
Bilməsə sanki lap çıxacaq canı.

Darıxır, yorulur, keçir böhtana,
Uydurur hesabsız hərzə-hədyanı.
Səy edir dinləyə kimsə inana,
Çıxar lap efirə olsa imkanı.

Bu bədbəxt özütək sanır hər kəsi,
Bilmir xeyirxahlıq, yaxşılıq nədir.
Tutub gözlərini edib kor nəfsi,
Qəlbini ilantək şübhələr didir.

Qanmur zövq duyuram bələliyindən,
Onun dadmadığı bir kərə də yox.
Hamıya hər zaman xoş diləyimdən,
Olub, yenə olar pay, sovqatım çox.

Şübhəli kimsə yaxşılığımdan,
Düşünür xeyrimə edirəm bunu.
Sorğuya, suala ötürmür ki an,
Bilə məqsədimin nə olduğunu.

## Arzuların

Arzundu, dünyaya gələ övladın,
Davam olmaq üçün soyun, kökünə.
Fikrində lap çoxdan tutmuşdun adın,
Yaraşan yaşamda oğul ilkinə.

Arzundu, dinləmək mışıltısını,
Nənnidə sakitcə uyuyan zaman.
Məsum baxışlarla qığıltısını,
Sevinc bəxş eyləyə köksünə umman.

Arzundu, dil aça, bircə söz deyə,
Səsləyə sizləri "ata, ay ana".
Uçasan bax onda fərəhdən göyə,
Kökləyə ağlını təkcə "can-can"a.

Arzundu, ayağa dura, yeriyə,
Yavaş, qorxa-qorxa hər addımında.
Başı yıxılanda yerə dəyməyə,
Müntəzir olasan hər dəm yanında.

Arzundur, yetirib ata borcunu,
Onu çatdırasan müsəlmanlığa.
Qurduğun bu büsat, bu məclis onu,
Səsləyə, hər işdə qəhrəmanlığa.

Arzundur, böyüyə gedə məktəbə,
"Beş"lərlə güldürə hər gün arzunu.
Böyük uğuruyla ola tələbə,
Ötə, qalaqlaya neçə yüzünü.

Arzundur, vətənə öz xidmətində,
Bərkiyə ruhunun arta qüdrəti,
Millətə dayağa dönə çətində,
Artmaqda mərd, igid, ər qətiyyəti.

Arzundur, qazana bir sənət ki o,
Adı dastan ola düşə dillərə.
Qürurun olacaq bil əlbət ki o,
Eşitcək uğurun şəksiz hər kərə.

Arzundur ən ülvi, qurub toy, düyün,
Vağzalı çaldırıb gətirmək gəlin.
Götürülə çiynindən yükü yer, göyün.
Qızına dönməsi bir şux gözəlin.

Bax gör arzuların böyüyür necə,
Günbəgün ilbəil körpə balanla.
Hələ umacaqsan nəvə-nəticə,
Gələcək onlar da yəqin zamanla.

Hələ ki bu günə mübarək deyək,
Hamımız ucadan bir də ürəkdən.
Ona hərəmizdən olan xoş dilək,
Qoruyar bəxtinə əsən küləkdən.

Arzular, arzular, arzular neçə,
Olub, olacaq da lap çoxdan da çox.
Biz də arzulayaq təkcə sevincə
Yol aça hər biri, qəm, kədərə yox.